**Akademik Tarih ve Düşünce Dergisi**

**Published by** **Spring 2023 / 10-1**

https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.

# 1920-1922-ci İllərdə Azərbaycan SSR-nin Xarici Ölkələrlə İqtisadi Əlaqələrində Konsessiyanın Rolu

**Oksana Abbasova***

**ORCID: 0000-0001-6979-3609**

**Öz**

Azərbaycan Respublikasının XX əsrin 20-ci illərin əvvəllərində xarici ölkələrlə iqtisadi əlaqələrinin inkişafında konsessiya mühüm rol oynayırdı. Respublikanın müxtəlif təsərrüfat sahələri, xüsusilə neft sahələri xarici şirkətlərə icarəyə verilirdi. Konsessiya xarici ölkələrə külli miqdarda qazanc bəxş edirdi, belə ki, xarici şirkətlər əldə edilən qazancdan dövlətə vergi verir və təsərrüfat sahələrini bərpa edirdilər. Aprel işğalından sonra, sənayenin müxtəlif sahələrində olduğu kimi, neft sənayesi də tənəzzül mərhələsində idi. Dünya müharibəsindən sonra iqtisadi tənəzzül, vəsait çatışmazlığı kimi qlobal problemlərin baş verdiyi bir dövrdə, Sovet Rusiyasının gücü ilə neftin yaxın zamanda bərpası mümkün olmadığından neft mədənlərini xarici kapitalistlərə konsessiyaya vermək məsələsi ortaya çıxdı. Azərbaycan neftinin taleyi əsasən "Mərkəzi hakimiyyətin" əlində idi. Sovet Rusiyasının Azərbaycanın xarici ölkələrlə ticarət etməsinə müdaxiləsi güclü idi. Bütün çətinliklərə baxmayaraq, Azərbaycan xarici ölkələrlə ticari-iqtisadi münasibət saxlaya bilmiş və müəyyən nailiyyətlər qazanmışdı. Məqalədə, həmçinin həmin dövrdə Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələrinin yaranması və inkişafında xüsusi rol oynamış konsessiyaların fəaliyyətini elmi cəhətdən araşdırılması öz əksini tapmışdır.

**Anahtar kelimeler:** Konsessiya, yeni iqtisadi siyasət, Genuya konfransı, Bakı nefti, Sovet hökuməti

**Gönderme Tarihi: 14/12/2022** **Kabul Tarihi:25/03/2023**

---

**Doktorant, Azərbaycan Dövlət Pedaqoji Universitet Tarix və Coğrafiya fakültəsi, Bakı-Azərbaycan, oksana.abbasova88@gmail.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
ABBASOVA, O., ‘’1920-1922-ci İllərdə Azərbaycan SSR-nin Xarici Ölkələrlə İqtisadi Əlaqələrində Konsessiyanın Rolu’’, *Akademik Tarih ve Düşünce Dergisi*, C. 10, S. 1, 2023, s. 394-409.

# The Role of the Concession in the Economic Relations of the Azerbaijan SSR with Foreign Countries in 1920-1922

**Oksana Abbasova***
**ORCID: 0000-0001-6979-3609**

## Abstract

The concession played an important role in the development of economic relations between the Republic of Azerbaijan and foreign countries in the early 20s of the 20th century.Various economic deposits of the republic, especially oil fields, were leased to foreign companies. The concession brought huge profits to foreign countries, while foreign companies paid taxes on their profits to the state and restored the economy. After the April invasion, the oil industry, like other industries, was in a period of decline. After the World War, during the period of global problems, such as economic recession and lack of funds, the question arose of transferring oil fields to foreign capitalists for concession, since it was impossible to restore oil industry by the forces of Soviet Russia in the near future. The fate of Azerbaijani oil was mainly in the hands of the "Central Power/Authority". The intervention of Soviet Russia in Azerbaijan's trade with foreign countries was strong. Despite all the difficulties, Azerbaijan managed to maintain trade and economic relations with foreign countries and achieve certain successes. The article scientifically reflects the activities of concessions that played a special role in the creation and development of Azerbaijan's economic ties with foreign countries at that time.

**Keywords:** Concession, New economic policy, Genoa conference, Baku oil, Soviet government

**Received Date: 14/12/2022** **Accepted Date: 25/03/2023**

*Doctoral student, Azerbaijan State Pedagogical University, Faculty of History and Geography, Baku-Azerbaijan, oksana.abbasova88@gmail.com*

***You can refer to this article as follows:***
ABBASOVA, O., ‘’1920-1922-ci İllərdə Azərbaycan SSR-nin Xarici Ölkələrlə İqtisadi Əlaqələrində Konsessiyanın Rolu’’, *Academic Journal of History and Idea* , Vol. 10, Issue 1, 2023, p. 394-409.

## Giriş

Yeni iqtisadi siyasətə keçid dövründə Respublikamızın iqtisadi həyatında bir sıra dəyişikliklər baş vermişdi.1921-1922-ci illərdə Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələrinin bərpası və möhkəmlənməsində xüsusi rol oynamış konsessiyaların fəaliyyətini elmi cəhətdən tədqiqi xüsusi tarixi əhəmiyyət daşıyır. Bununla, XX əsrin 20-ci illərdə xalqımızın tarixi keçmişinə bir daha nəzər salaraq, həmin dövrün öyrənilməsində məqalə geniş oxucu kütəsi üçün faydalı ola bilər.

1920-ci ildə Azərbaycan XKS yanında konsessiya komissiyası öz fəaliyyətinə başladı. Əslində konsessiya komissiyası xarici ölkələrlə Azərbaycanın iqtisadi əlaqələrinin yaxşılaşdırılması üçün zəmin yaradırdı. Lakin ilk vaxtlar komissiya zəif fəaliyyət göstərdiyi üçün müxtəlif təsərrüfat sahələri xarici ölkələrin şirkətlərinə icarəyə verilmədi.

Müharibədən sonra neft sənayesində, təsərrüfat sahəsində və digər sənaye sahələrində baş verən tənəzzül bütün ölkədə böhrana səbəb olmuşdu. Həmin dövrdə neft sənayesinin qarşılaşdığı çətin vəziyyətdən çıxmaq, neft sənayesində məhsuldar qüvvələrdən səmərəli istifadə etmək, neft istehsalatını artırmaq üçün neft mədənlərinin konsessiyalar şəklində xarici kapitalistlərə verilməsi çıxış yolu kimi görünürdü.V.İ.Lenin konsessiyalar haqqında yazdığı və SSR Xalq Komisarları Sovetinin 1 fevral 1921-ci ildə müzakrə edib bəyəndiyi qərar layihəsi əsasında Bakı və Qrozni neft mədənlərinin 25 faizinin xarici kapitalistlərin istifadəsinə verilməsi müəyyənləşdirildi. Beləliklə, Respublikada xarici ölkələrlə iqtisadi əlaqələrin konsessiya forması fəaliyyətə başladı.

### 1-Neft Sənayesinin Konsessiyaya Verilməsi

Azərbaycanda hərbi kommunizm siyasətindən yeni iqtisadi siyasətə keçid Azərbaycan İnqilab Komitəsinin "Bütün növ məhsul inhisarının ləğv edilməsi haqqında" 1921-ci il 17 may tarixi dekreti ilə başladı.[1] Beləliklə bütün ölkədə azad ticarət bərpa olundu.

[1]Fəzail İbişov, *Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930),* Mütərcim, Bakı 1996, s. 60.

Yeni iqtisadi siyasətə keçid ilə birgə kapitalizmdən sosializmə keçid dövründəki xalq təsərrüfat formalarından birini - dövlət kapitalizmi ukladı formalaşdı. Dövlət kapitalizmi ukladı müxtəlif təsərrüfat obyektlərinin və dövlət müəssisələrinin xarici şirkətlərə konsessiya və yerli kapitalistlərə icarə şəklində verilməsindən ibarət idi.

Aprel işğalından sonra ölkədə neft sənayesinin bərpa və inkişaf etdirilməsində Sovet hökumətinin gördüyü ilk mühüm addım onun milliləşdirilməsi oldu. 1920-ci il may ayının 5-də Azərbaycan Kommunist partiyası birinci rəsmi konfransında ağır sənayenin bütün sahələrinin və ən əsası neft sənayesinin milliləşdirilməsini məsələsini müzakirəyə qoydu. İnqilab komitəsi tərəfindən verilmiş 27 may tarixli dekretə əsasən neft sənayesi milliləşdirildi.

Azərbaycan neft sənayesi milliləşdirildikdən sonra qəhrəman Bakı fəhlələri neft sənayesində yaranmış ağır vəziyyəti aradan qaldırmaq, istehsalatı qaydaya salmaq, neft hasilatını ölkənin tələbləri səviyyəsinə çatdırmaq üçün inqilabi əzm və fədakarlıq işə başladılar.[2]

Neft sənayesində fəaliyyət göstərən məsul işçilər, o cümlədən Bakı fəhlələri mədənlərin konsessiyaya verilməsinə mənfi münasibət bəsləyirdilər. Onlar inanırdılar ki, xarici kapitalın iştirakı olmadan, Bakı mədənləri konsessiyaya verilmədən neft sənayesini bərpa etmək mümkündür. Belə ki, 1921-1922-ci illərdə Bakı fəhlələri böyük cəsarət göstərərək, neft mədənlərini öz qüvvələri ilə bərpa etmişdilər. Böyük uğurun və birgə əməyin nəticəsində1922-ci ildə neft hasilatı artmağa başladı.

Lakin Bakı fəhlələrinin göstərdiyi səylərə baxmayaraq, neft sənayesi maliyyə, texniki avadanlıq materialı və işçi qüvvəsinin azlığı, cəhətdən çətin vəziyyətdə idi. Azərbaycan neft sənayesindəki geriliyin tez bir zamanda aradan qaldırmaq mümkün deyildi. Fəhlələr üçün geyim, qalmaq üçün yer və s. kimi istehlak şeyləri çatışmırdı. Buna görə də, fəhlələr iş yerlərini tərk edirdilər, onlar daha yaxşı təmin olunmaq məqsədi ilə iş üçün başqa yerlərə gedirdilər.

Baş verən problemləri aradan qaldırmaq üçün V.İ.Lenin çıxış yolunu neft sənayesinin konsessiyaya verilməsində görürüdü. O, mövqeyini belə əsaslandırırdı ki, neftin konsessiyaya verilməsi ilə dünya bazarına çıxmaq, habelə müasir texniki avadanlığın əldə edərək neft sənayesini inkişaf etdirmək daha çox mümkündür.

[2]Əli Əliyev, *Sovet hakimiyyəti illərində Azərbaycan neft sənayesinin inkişafı,* Azərbaycan dövlət, Bakı 1957, s. 8.

Azərbaycan nefti dünyanın maraq dairəsində idi. Avropanın böyük güc dövlətləri Bakı neftinin konsessiyaya verilməsi üçün dəfələrlə müraciət etmişdilər. N.Nərimanov neftin dünya ölkələri üçün nə qədər önəmli oduğunu 1921-ci ilin mayında birinci Ümumazərbaycan Şuralar qurultayındakı çıxışında belə qeyd etmişdi, "neft Azərbaycanın iqtisadi və siyasi həyatında çox mühüm yer tutur, hazırda o, nəinki Sovetlər respublikasının, hətta bütün Avropanın nəzər diqqətini özünə cəlb edir. Təsadüf deyildir ki, biz Azərbaycan neftinin Sovet Respublikasına aid olduğunu bildirdikdə, dərhal İngiltərə sovetlər ölkəsini tanıdığını elan etdi".[3]

RSFSR Xalq Komissarları Soveti 1921-ci il fevralın 1-də qərar qəbul etmişdi: "Bakının və Qroznının ayrı-ayrı neft rayonlarının, həmçinin başqa mədənlərin konsessiyaya verilməsi əsas etibarilə bəyənilsin. Rusiya XKS-i Ümumrusiya Xalq Təsərrüfatı şurasına tapşırdı ki, neft çıxarmağı təmin etmək və mədənlərin indiki istismarı zamanı yarana biləcək fəlakətlərin səbəblərini öyrənmək üçün Bakıya və Qroznıya komissiyalar göndərsin".[4]

Daha sonra, 1921-ci il martın 16-da RK(b)P MK-nın X qurultayı zamanı V.I.Lenin Bakı mədənlərinin bir hissəsinin icarəyə verilməsi haqqında qərar qəbul etdi. Lenin Bakının 25 faizini konsessiyaçılara verilməsinin daha yaxşı nəticə verəcəyini düşünürdü. Bu qərar Azərbaycanın razılığı əsasında qəbul edilmişdi. V.İ.Lenin L.B.Krasinə təcili bildirdi ki, «partiya qurultayı Qroznı və Bakının konsessiya obyektləri olması haqqında mənim fikrimi bəyəndi. Nə qədər ki, Azərbaycan tərəfinin razılıq var, bu danışıqları tezləşdirin».[5]

1921-ci il dekabrın 26-da Rusiya və İtaliya arasında ilk ticarət sazişi bağlandı. Avropa ölkələrinin etirazı ilə müqavilə qüvvəyə minmədi, beləliklə Rusiya Avropa dövlətlərinin razılığını əldə etmək üçün neftin Avropaya ixracına icazə verdi. İngiltərədəki sovet ticarət nümayəndəsi L.B.Krasin G.Çiçerinə «italyanlarla münasibət yaratmağın zəruriliyini və tələb edilmiş neftin Bakıdan ixracını tezləşdirməyi» bildirdi.[6]

Eyni zamanda, Londonda İngiltərə və Rusiya arasında Azərbaycanın razılığı Bakıdan neft aparılması haqqında danışıqlar oldu. 1922-ci ilin sentyabrında aparılan danışıqlar əsasında Urkart L.B.Krasinin imzası ilə konsessiya əldə etmək barədə bir müqavilə bağladı. Lakin V.İ.Lenin

---

[3]K. Zeynalov, *Azərbaycan SSR-in ticarət və iqtisadiyyatında xüsusi təsərrüfat kapitalist ukladı və onun sıxışdırılması məsələləri (1921-1928).* D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Elmi Əsərləri, seriya no: 4, Bakı 1972, s. 33.
[4]*Azərbaycan tarixi:* 7 cilddə, VI C., Elm, Bakı 2008, s. 80.
[5]Ramilə Dadaşova, *Avropa dövlətləri və Azərbaycan(1920-1922ci illər),* Planet-Press, Bakı 2006, s. 73.
[6]R. Dadaşova, *a.g.e.*, s. 81.

müqavilənin mətni ilə tanış olduqdan sonra bildirmişdir ki: “Krasinin Urkart ilə müqaviləsini oxuduqdan sonra bunun təsdiq edilməsi əleyhinə çıxıram. İki və ya üç il sonra bizə gəlir vəd edən Urkart bizdən indi pul alır. Buna əsla yol vermək olmaz... təklif edirəm bu konsessiya rədd edilsin. Bu əsarət və qarətdir”.[7] Daha sonra, Urkart yeni şərtlərlə müqavilə bağlamağı təklif etmişdi. Lenin müqavilənin şərtlərinin Sovetlər üçün səmərəli olduğu halda təklifinə baxılacağını qeyd etmişdi. V.İ.Lenin “Observer” və “Mançester Qardian” müxbiri M.Farbmana, daha sonra“Mançester Qardian” müxbiri A.Ransoma müsahibə verdiyi zamanı bu məsələyə aydınlıq gətirərək, qeyd etmişdir ki: “Urkart barəsində Siz tamamilə haqlısınız. Mən bu yaxınlarda Farbmana söylədiklərimi təkrar edirəm. Urkartın konsessiyasını biz qəti rədd etməmişik. Onu biz ancaq, açıqca göstərdiyimiz siyasi səbəbə görə rədd etmişik. Biz öz mətbuatımızda bütün leyinələri və əleyhinələri açıq müzakirə etməyə başlamışıq. Ümid edirəm ki, bu müzakirələrdən sonra biz həm siyasi, həm də iqtisadi cəhətdən qəti bir fikrə gələcəyik.”[8] Eyni zamanda V.İ.Lenin bu məsələnin Rusiyanın mənafeyinə ən uyğun şəkildə həll olunacağını və İngiltərənin Rusiyaya etdiyi ədalətsizlikləri aradan qaldırmalı olduğunu bildirmişdi.

Qeyd edək ki, xarici kapitalistlər konsesiyalar haqqında bəzən ağır şərtlər irəli sürürdülər. Əldə olunan gəlirdən xarici kapitalistər daha çox özləri faydalanmaq istəyirdilər, buna görə də Sovet hökuməti müqavilədən imtina etməli olurdu. Belə ki, 1921 və 1922-ci illərdə amerikan şirkəti “İnterneyşil Barnsdol Koporeyşn” kompaniyası ilə ölkəmizdə neft konsessiyaları barədə görüşlər keçirilmişdi. “İnterneyşil Barnsdol Koporeyşn” şirkəti ilə Sovet hökuməti 1922-ci ilin 9 sentyabrında Balaxanı neft quyularının 15,5 il ərzində konsessiyaya verilməsi və yeni quyular qazılması haqqında iki müqavilə imzalanmışdı. Lakin V.İ.Lenin müqavilə mətni ilə tanış olduqdan sonra onun sovetlər ölkəsi üçün əlverişsiz olduğunu bildirmişdi.

## 2-Genuya Konfransında Konsessiya Aid Danışıqlar

Genuya konfransı başlamadan əvvəl, Bakı nefti ilə yaxından maraqlanan bir sıra Avropa və Amerika şirkətləri Türkiyə, İran və Yaxın Şərqdə konsessiyalar almağa can atırdılar. Bu barədə İ.Əbilov 3 mart 1922-ci il məktubunda N.Nərimanova yazırdı ki, amerikalılar Şimali İranda neft konsessiyası əldə ediblər və orada çıxarılacaq neftin dəniz vasitəsilə daşınması yollarını

[7] *V.İ.Lenin əsərlərinin tam küliyyatı*, 45 cild, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı 1984, s. 232.
[8] V.İ.Lenin, a.g.e., s. 293-294.

arayırlar.[9]Həmçinin, İ. Əbilov Amerika neft kompaniyasının Ərzurumda neft axtarışlarına başlamaq üçün Türkiyə hökuməti ilə danışıqlar apardığını qeyd edərək bildirmişdir ki, "geoloji tədqiqatlara əsasən, müəyyən olunub ki, Ərzurum neft yataqları Bakı nefti ilə eyni tərkibə malikdir və eyni yeraltı neft axarı üzərində yerləşir."[10]

Sovet nümayəndə heyəti Qərb ölkələrinin konsessiya maraqlarını Sibirin təbii ehtiyatlarına yönəldilsə də, lakin konfransında əsas məsələlərdən biri Bakı nefti hesab edilirdi. 1922-ci illərdə keçirilmiş Genuya və Haaqa kimi beynəlxalq konfranslar, demək olar ki, Bakı neftinin konsessiyaya verilməsi üzərində qurulmuşdu, nəhəng neft şirkətləri Bakı nefti uğrunda mübarizə aparmışdılar. Genuya konfransında əsas məsələ olan neft məsələsi demək olar ki, gizli saxlanılmışdı. Avropanın məqsədi Bakı nefti üzərində söz sahibi olmaq idi. Bakı nefti Avropanın daima maraq dairəsində olmuşdur. Avropa mətbuatının fikrincə, dünyanın "heç bir rayonu Bakı neftini əvəz edə bilməzdi. Dünyanın heç bir yerində, hətta, Meksikada da Azərbaycanın Bakı neft hövzəsindəki qədər neft çıxarılmır. Bu rayonda neft ehtiyatları tükənməz dərəcədə böyükdür. Ona görə də bizim fəaliyyətimizin əsas mərkəzi Bakı olmalıdır."[11]

Mançesterdə nəşr edilən "Qardian Kommersial" qəzetinin gəldiyi qənaətə görə, Sovet hökuməti Genuya konfransında iştirak etmişdirsə, deməli konfransın əsas müzakirələrindən biri neft olacaqdı.

L.Krasin İtaliyanın "İnformation" qəzetindəki müsahibəsində Sovet hökuməti böyük dövlətlərə neft konsessiyaları vermək istəyini bəyan etmişdi. Həmçinin, L.Krasin qeyd etmişdi ki, Sovet Rusiyası Azərbaycanın neft mədənlərinin dörddə birini özündə saxlamalı, qalan hissəsini Fransa, İngiltərə, Amerika və Belçika şirkətlərinə konsessiyaya verməlidir.[12] Nəriman Nərimanov da neft mədənlərinin qismən konsessiyaya verilməsi tərəfdarı idi. O düşünürdü ki, bu yolla Azərbaycanda sənayeni inkişaf etdirmək üçün əla fürsət ola bilərdi. Bu barədə Genuyada neftin konsessiyaya verilməsi ilə bağlı danışıqlar gedən bir dövrdə, Nərimanov üzünü qərbin işgüzar darirələrinə tutaraq demişdi:"Bizim Azərbaycanda neft də vardır, onu hasil etmək də olar, konsessiyaya vermək də."[13] Ancaq N.Nərimanovdan fərqli olaraq, mühacir nümayəndələrinin Bakı neftinin konsessiyaya verilməsi məsələsinə tutduğu mövqe daha sərt idi. Belə ki, Genuyaya

---

[9]Cəmil Həsənli, *Sovet Dövründə Azərbaycanın Xarici Siyasəti (1920-1939),* Adiloğlu, Bakı 2012, s. 494.
[10]C. Həsənli, *a.g.e.,* s. 494.
[11]C. Həsənli, *a.g.e.,* s. 512.
[12]Adil Hüseynov, *Nərimanovun Genuya səfəri (Kommunist),* S. 158, Bakı 1989, 8 iyul, s. 3.
[13]A. Hüseynov, *a.g.e.,* s. 3.

gəlmiş Azərbaycan Cümhuriyyətinin nümayəndələri adından Əlimərdan bəy Topçubaşov bəyan etdi ki, Sovet hökumətinin Azərbaycan neftini konsessiyaya vermək hüququ yoxdur. Genuya konfransın ikinci günü Azərbaycan nümayəndə heyəti qismində M.Məhərrəmov «Corrlere de italia» qəzetinə verdiyi müsahibədə bolşeviklərin Azərbaycan millətinə məxsus neft mədənlərini satmağa səlahiyyətli olmadığını qeyd etdi.[14] Mühacir nümayəndələrinin fikrincə, Bakı neft sənayesində rus kapitalı elə də əhəmiyyətli rol oynamamışdı. Ona görə də M.Məhərrəmov yazırdı ki, Abşeronun neftlə zəngin əraziləri Azərbaycan xalqına və oraya kapital qoymuş xarici şirkətlərə aid olmalı idi.[15]

Amerikanın "Nyu-York-Uorld" qəzeti öz səhifəsində yazırdı: "rus nümayəndələri bütün orqanları çaşdırmışlar. Rus nefti sovet nümayəndələrinin əlində kozır olub, müttəfiqlərin əhvalını pozur, eyni anda rusların əhvalını yüksəldir".[16]

Bakı neftinə münasibət nəinki, Qərb dövlətləri ilə Sovet Rusiyası arasında ziddiyyətləri gücləndirmiş, eyni zamanda Qərb dövlətlərinin bir sıra aparıcı şirkətləri arasında da neft intriqaları mövcud idi. ABŞ Genuya konfransında rəsmi iştirak etməsə də, neft konsessiyaları məsələsinə böyük maraq göstərirdi. Onun əsas rəqibi İngiltərə idi, konsessiya bölgüsündə İngiltərə qarşı Fransa və Belçika ilə birlik nümayiş etdirmişdi. Belə bir ziddiyyət Genuya konfransı günlərində "Nobel qardaşları cəmiyyəti", "Royal Dutch Shell" və "Standart Oil" arasında daha açıq xarakter almağa başlamışdı. Onlar Bakı neft konsessiyalarını almağa ümid bəsləyir və bu istiqamətdə ciddi rəqiblərə çevrilirdilər. Hətta, onlar bir-birlərinə qarşı mətbuatda kampaniya aparmaqdan belə çəkinmədilər. "Royal Dutch Shell" mətbuatda belə bir şayiə yaydı ki, guya, "Standart Oil" Nobel qardaşlarının Bakı neftində olan səhmlərini ələ keçirmişdir. Lakin Emmanuel Nobel belə məlumatların əsassız olduğunu söyləmişdi.

Genuya konfransı ərəfəsində İtaliya neft məsələsində heç bir irəliləyiş əldə edə bilməsədə, neft məsələsini birbaşa Lloyd George ilə həll etmək qərarına gəldi. Əsasən, 1922-ci il mayın 2-dən 7-dək neft Genuya konfransında əsas müzakirə məsələsinə çevrilmişdi. Royal Dutch Shell-in rəhbəri Deterdinqlə Sovet hökuməti arasında razılaşma xəbəri İtaliyada böyük həyəcana səbəb oldu. Böyük güc dövlətləri Qafqazın neft quyularının müstəqil istismarına üstünlük verirdilər.

---

[14]Mir Yaqub Mehdiyev, *Beynəlmiləl Siyasətdə Petrol*, Azərbaycan Dövlət, Bakı 1994, s. 20.
[15]Cəmil Həsənli, *Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov*, Azərbaycan Diplomatik Akademiyası, Bakı 2013, s. 499.
[16]K. Zeynalov, *a.g.e.*, s. 32-33.

İtaliya firmalarının Yaxın Şərqə və Qafqaza daxil olması üçün Lloyd Corcdan zəmanət almağa cəhd edildi. Mayın 4-də İtaliyanın Xarici işlər naziri Karlo Şenzer Böyük Britaniyanın baş naziri ilə söhbəti zamanı o, neft sahəsində əməkdaşlığa toxunaraq, köməklik göstərilməsini xahiş etmişdi. Daha sonra Karlo Şenzer Krassin ilə danışıqlar aparmışdı. Uğursuz kommersiya sazişi ilə bağlı danışıqlar zamanı o, bəzi neft güzəştlərinin verilməsini xahiş etdi, buna görə İtaliyaya Bakı yaxınlığındakı Bibi-Heybət neft sahəsi konsesiyaya verildi.

1922-ci il aprelin sonunda hər kəs Genuya Konfransının uğursuzluğa məhkum olduğunu başa düşdükdə, hətta İtaliya hökuməti də öz fəaliyyət azadlığını geri aldı. 1922-ci il mayın 24-də Rusiya və İtaliya arasında ticarət konvensiyasını imzaladılar. Müqaviləyə əsasən onlar sovetlərdən sitrus meyvələrinin ixracı üçün güzəştlər, tranzit mallar üçün ən əlverişli dövlət statusu, malların Qara dənizdəki sərbəst limanlarda saxlanmasına icazə və neft konsessiyası kimi güzəştlər əldə etdilər. Lakin müqavilənin mətnində Sovet hökumətini de-yure tanınması haqqında bənd daxil edilmədiyi üçün, müqavilə Sovet hökuməti tərəfindən ratifikasiya edilmədi. İtaliyanın xarici işlər naziri Karlo Şenzer Rapallo müqaviləsinin şokundan sonra Sovet hökumətini de-yure tanımaqdan imtina edilməsini, Sovetlərə siyasi güzəştlər verməklə Avropanın qalan hissəsindən üz döndərmək istəmədiyi ilə əsaslandırmışdı.

**3-Digər Sənaye Sahələrinin Konsessiyaya Verilməsi**

1920-ci il iyul ayında təşkil olunan Azərbaycan SSR Xarici Ticarət Komissarlığının əsas vəzifəsi bir sıra dövlətlərlə ticari-iqtisadi əlaqələrinin bərpa olunması və xarici ticarətin dövlət inhisarına alınmasını təşkil etmək idi. Tez bir zamanda bəzi Avropa ölkələri ilə, o cümlədən Fransa, İtaliya, Almaniya, və İsveçrənin ticarət firmaları ilə əlaqə yaradıldı. Ölkəyə Batum limanı ilə lazım olan metal məmulatları, kənd təsərrüfatı alətləri və kütləvi istehlak malları, texniki avadanlıq, elektrik avadanlıqları, paltar, ayaqqabı, qənd, çay və dərman preparatları gətirilmişdi.

1921-ci il avqustun 7-dən 1922-ci ilin dekabrınadək Azərbaycanın xarici ticarəti Sovet hökumətinin nəzarətinə keçdi. Rusiya Azərbaycanın xarici dövlətlərlə iqtisadi əlaqələrinə mane olurdu. Kapitalın Azərbaycana gəlməsinə icazə vermirdi, neft və digər zəngin təbii ehtiyatları üzərində güclü nəzarət qoyurdu. Habelə, Azərbaycan SSR-nin xarici ölkələrlə ticarət sövdələşməsi aparmasında həmin ölkələr tərəfindən Sovet hökumətinin tanınması olduqca vacib idi. 1921-ci ilin avqustun 7-də Azərbaycan ilə Sovet Rusiya arasındakı ticarət müqaviləsi imzalanmışdı, həmin müqaviləyə əsasən Azərbaycan hökuməti Rusiyanın razılığı olmadan başqa ölkələrlə ticarət danışıqları apara bilməzdi. Bu müqavilə əsaslanaraq, 1921-ci il sentyabrın 26-da V.İ.Lenin və

İ.V.Stalin N.Nərimanova məktub yazaraq bildirmişdilər ki, heç bir halda nə almanlarla, nə də başqaları ilə Rusiya Xarici Ticarət Komissarlıqnın razılıq olmadan xarici ticarət barədə müqavilə bağlamaq olmaz. Bu səbəbdən İngiltərə ilə konsessiya ilə bağlı danışıqlar nəticəsiz qaldı.

1921-ci il 7 avqusta qədər olan dövrdə Azərbaycan Respublikasının xarici ölkələrlə ticarət əlaqələri nisbətən sərbəst idi. 1921-ci il avqustun 7-də Zaqafqaziya Xarici Ticarəti ilə Rusiya Xarici Ticarəti arasında bağlanan müqaviləyə görə Rusiya Azərbaycanın xarici ticarətində iştirak etmə imkanı qazandı. 1921-ci il avqustun 7-dən 1922-ci ilin dekabrınadək Rusiya Azərbaycanın xarici ticarət sahəsinə siyasi və iqtisadi sahədə maraqlarını təmin etmək məqsədi ilə təzyiqi daha da artırdı. Belə ki, 7 avqust müqaviləsinə əsasən, Cənubi Qafqaz respublikaları Rusiya tərtib etdiyi qaydalar əsasında xarici iqtisadi əlaqələrini həyata keçirə bilərdi. Habelə, Azərbaycan SSR-nin xarici ölkələrlə ticarət sövdələşməsi aparmasında həmin ölkələr tərəfindən Sovet hökumətinin tanınması olduqca vacib idi. Bu müqaviləyə əsaslanaraq, 1921-ci il sentyabrın 26-da V.İ.Lenin və İ.V.Stalin N.Nərimanova məktub yazaraq bildirmişdilər ki, heç bir halda nə almanlarla, nə dəbaşqaları ilə Rusiya Xarici Ticarət Komissarlıqnın razılıq olmadan xarici ticarət barədə müqavilə bağlamaq olmaz. Bundan əlavə malların ixracı, sənaye sahələrinin konsessiya verilməsi, xarici ölkələrlə idxal-ixrac əməliyyatlarına nəzarəti öz üzərinə götürdü.

Sovet Rusiyasının ölkənin xarici ölkələrlə ticarətinə müdaxiləsi nəticəsində, sənayenin inkişafında ləngimələr baş verirdi. Belə ki, 1921-ci ilin payız aylarında Azərbaycanda sənayenin tənəzzülü hökm sürürdü. Həmin dövrdə Azərbaycanda zavod və fabriklərin sayı az idi, eyni zamanda maşın və texniki avadanlıq çatışmazlığı mövcud idi. Məhsul istehsal edən fabrik və zavodların tikilməsinə diqqət yetirilmirdi.

Balıq vətəgələri, dəyirman və iplik fabrikinin H.Z.Tağıyeva konsessiyaya verilməsi üçün 1921-ci il sentyabr ayının 26-da Azərbaycan XKS-dən xahiş etmişdi. H.Z.Tağıyevin Fransadan Azərbaycana «sənaye avadanlıqları gətirərək zavod tikmək» təklifinə müsbət cavab verilmədi. Bundan əlavə, H. Z. Tağıyev Azərbaycan XKS-nə bildirdiki, ipəkəyirən fabriki və balıq vətəkələri üçün lazım olan bütün texniki avadanlığı Avropa ölkələrindən, xüsusilə İngiltərədən gətirmək olar. Hətta bu sahələrinin yenidən bərpası üçün Qərbi Avropanın maliyyə dairələri ilə müsbət yönümlü danışıqlar olmuşdu. Belə ki, dəyirmanı, iplikəyirən fabriki və balıq vətəkələrini konsessiyaya verməklə və habelə, xaricdən kredit almaqla sənayenin bu sahələrinin inkişafının mümkün idi. 1922-ci il yanvarın əvvəlində H.Z.Tağıyev N.Nərimanova həmin sənaye sahələrinin konsessiyaya verilməsi üçün müraciətində qeyd edirdi ki, Avropadan kredit götürməklə bu zəruri

avadanlıqları əldə edə bilərlər. O, vaxtında bu təklifi dəyərləndirməyin faydalı ola biləcəyini söyləyirdi. Lakin onun bu təklifi də baxılmamış qaldı. Halbuki, Azərbaycan neft sənayesini və balıq vətəgələrini xarici dövlətlərə konsessiyaya verməklə, normal idxal-ixrac tarifi və gömrük vergiləri tətbiq etməklə böyük mənfəət verərdi.[17]

1922-ci il fevralın 26-da H.Z.Tağıyev XKS-nın sədri N.Nərimanova yenidən müraciət etdi. O, N.Nərimanova «Qərbi Avropa maliyyə dairəsindən Azərbaycanın yeni iqtisadi siyasi kursunu möhkəmlətmək üçün kredit almaq» təklif etdi.[18] Bundan əlavə, 1921-ci il 8 noyabrda H.Z.Tağıyevin Parisdən aldığı məktub əsasında XKS-nə bildirdiki, onun keçmiş iplikəyirən fabriki üçün İngiltərədə zəruri maşın və avadanlıq var və bu məsələ ilə əlaqədar İngiltərəyə müraciət etmək olar.[19] Lakin, N.Nərimanov H.Z.Tağıyevin Avropadan maşın və avadanlığın alınması təklifini bəyənsə də, Avropa ölkələrinin Sovet Rusiyasının tanımaması səbəbindən Tağıyevin təklifi dəyərləndirilmədi.

Eyni zamanda, Ingiltərə səhmdar cəmiyyətinin sədri İ.Nyuson Kür, Araz, Muğanda hövzələrinin balıq vətəkələrinin konsessiyaya verilməsinin Xəzər balıq sənayesinin ən yüksək səviyyədə yüksəliş edəcəyini bildirmişdi. Azərbaycan hökümətitərəfindən bu təklif bəyənilsədə, həmin yerlər milliləşdirildiyi üçün Moskva konsessiyaya verməyi məsləhət görmədi.

Həmin dövrdə balıq sənayesi dövlət təsərrüfatı hesabına işləyirdi və dövlət tərəfindən icarəyə verilirdi. Hətta Kürün orta sahilindəki balıq vətəgələri 1921-ci il Gürcüstan hökümətinə icarəyə verilmişdi.[20]

Təkcə balıq vətəkələri deyil, eyni zamanda biyan kökü istehsalına maraq göstərən İngiltərə 1922-ci ilin yanvarında Azərbaycan hökümətinə biyan kökü istehsal edən milliləşdirilmiş zavodun onlara konsessiyaya verilməsi üçün müraciət etmişdi.1922-ci ilin yanvarında Ingiltərə səhmdar cəmiyyəti biyan kökü istehsal edən milliləşdirilmiş zavodun onlara konsessiyaya verilməsini təklif etdi. Moskvasız heç bir qərar qəbul etməyən hökümət bu danışıqlardan müsbət nəticə əldə edə bilmədi.

---

[17]Röfət Quliyev, *Azərbaycan dövlətçiliyi tarixində gömrük işi (Azərbaycan SSR sovet gömrük sistemi şəraitində (1920-1991),* Turxan NPB, Bakı 2015, s. 51.
[18]R. Dadaşova, *a.g.e.,* s. 76.
[19]R. Dadaşova, *a.g.e.,* s. 76.
[20]S. Seyidova, *a.g.e.,* s. 109-110.

«Nyu Trest Limited» firması İngiltərənin tanınmış bank sahibi Kriss tərəfindən maliyyələşdirilmişdi. O, Bakı su kəmərinin tikintisinin maliyyələşdirməsində iştirak etmişdi.1922-ci il İngiltərənin «Nyu Trest Limited» firması Moskvadakı AXTŞ yanında Konsessiya komitəsinə və Azərbaycan hökumətinə Kür-Araz hövzələrinin balıq vətəkələrini konsessiyaya götürmək üçün müraciət etmişdi.[21] Krissin bu təklifində L.B.Krasin vasitəçi rolunu oynamışdır. Daha sonra Kür, Araz, Muğan hövzələri«Nyu Trest Limited» şirkətinə konsessiyaya verildi.Balıq vətəgələrinin «Nyu Trest Limited» firmasına verilməsinə Azərbaycan hökuməti razı deyildi. Lakin mərkəzin razılığı əsasında bu ərazilər konsesiyyaya verildi. Təkcə balıq vətəgələri deyil, faydalı qazıntı yataqları və bir sıra iri təsərrüfat sahələri də mərkəz tərəfindən konsessiyaya verilməsi öz təsdiqini tapmışdır.

YİS-in başlanğıcında Almaniyanın sovet hökü̈məti ilə ticari-iqtisadi əlaqələri zəif idi. Sovet Rusiyasının Azərbaycanın Almaniya iləticarət etməsinə müdaxiləsi daha sərt idi. Hətta, XXİK-nın Ali İqtisadi Şura ilə yazışmalarında belə bir məlumat var idi ki, Azərbaycan ilə Almaniya arasında ticarət münasibətləri yaratmaq hüququ ilə gələn şəxslər həbs olunurdu. Bütün çətinliklərə baxmayaraq, Azərbaycan Almaniya ilə ticarət əlaqələrini inkişaf etdirmək tərəfdarı idi. Belə ki, konsessiya barədə danışıqlarda Almaniya firması nəqliyyat probleminin həllini öz üzərinə götürmüşdü və alman markasının kursu aşağı olduğuna görə Azərbaycan Almaniya ilə ticarətə üstünlük verirdi. Bu barədə M.Hüseynov yazırdı: «Məşhur İsveçrə və Amerika firmaları mənə məlum olduğuna görə, avadanlıqları, alman markasının kursu aşağı olduğu üçün Almaniyadan alırlar. Dəniz yolu ilə Batuma göndərməklə institut aparatları alına bilər».[22]

Beləliklə, 1921-ci il sentyabrın 16-da AİŞ-də Azərbaycan ilə Almaniya arasında ticarət müqaviləsi barədə materialların hazırlanması üzrə komissiya öz işini yekunlaşdırdı. Müqavilədə əsasən, Cənubi Qafqaz respublikalarının iqtisadi vəziyyəti üçün əhəmiyyət daşıyan məsələlər öz yerini aldı. Belə ki, nəqliyyat problemi, kənd təsərrüfatı və sənayenin ətraflı öyrənilməsi, gələcək perspektivlər, ixrac və idxal mallarına ehtiyac məsələlərinə yer verildi. Habelə, komissiya tərəfindən Azərbaycanın metal emalı sənayesi materiallarını, altı zavodun avadanlıq və xarici ixtisasçılarla təmin olunmasını müqaviləyə əlavə olundu. Lakin AİŞ-də Azərbaycan və Almaniya

[21]ARDA, f.411, siy 1, iş 12, v.62,65
[22]R. Dadaşova, *a.g.e.,* s. 80.

arasında ticarət müqaviləsinin bağlaması üçün yaradılan komissiyanın işi Sovet hökumətinin müdaxiləsi nəticəsində nəticəsiz qaldı.

Azərbaycan ilə Almaniya arasında 29 mart 1922-ci il yazışmalarına əsasən Almaniyadan Azərbaycana aqreqat malları gətirilməsi və eyni zamanda, Azərbaycandan Almaniyaya kimyəvi maddə olan insektisidlər aparılması barədə yazışmalar oldu. Bundan əlavə, Almaniyanın «Volf» firması ilə sazişə əsasən Bakı Şollar su kəməri üçün güclü matorlar alındı. Daha sonra, Rusiya və Almaniya arasında 1922-ci il 16 apreldə imzalanan Rapollo ticarət müqaviləsindən sonra Almaniya öz maraqları üzrə ilk addımı Bakı neft sənayesi ilə yaxınlaşmaqda gördü.

Hələ, L.B.Krasin «Nyu Trest Limited» cəmiyyətinin Bakı su kəmərinin tikilişini maliyyələşdirmək və eyni zamanda, balıq vətəkələrinin konsessiyaya verilməsi təklifi etmişdi. 1921-ci il noyabr ayında Almaniyanın «Dikman və Qanzel» şirkəti Nyu York, Bern və Hamburqda yerləşən «Şərqi ticarət korporasiyası» ilə birlikdə Xəzər dənizindəki balıq vətəkələrində (Vorobyev və Bankə vətəkələri ) olan bütün tikililəri, gəmiləri, balıq toru, tilov ipi, qida məhsullarını, balıq məhsullarını və Aşağı Kür, Araz, və Muğan çöllərini 36 il müddətində konsessiyaya götürməyi təklif etdi.[23] Almaniya firmasının fikrinə görə, «rus hökümətinin razılıq ilə balıq plansız istehsal olunur və balıq vətəkələrinin ticarət və texniki təchizatı rus, yaxud xarici ixtisasçılara həvalə olunmalı»[24] idi. Əslində, konsessiyaya götürülən sahələrin faydası olduqca mühüm idi. Belə ki, konsessiyaçılar balıq məhsullarının bir hissəsini dövlətə verməklə maneəsiz və gömrük vermədən məhsulu ixrac edə bilərdilər. Lakin müqavilədə göstərilən ərazilər, keçmiş Vorobyev vətəkələri, Bankə vətəkələri dövlətin mülkiyyəti olduğu üçün «Dikman və Qanzel» şirkətinə bu vətəgələr konsessiyaya verilməmişdi.[25] Azərbaycan höküməti konsessiyanın uzun müddətli olduğunu bəhanə edərək bildirdi ki, «bu yerlər H.Z.Tağıyevə natamam icarəyə verilmiş və müvafiq təchizat üçün Xarici Ticarətə sifariş verilmişdir».[26]

1922-ci ilin sentyabr ayında Almaniyanın Tiflisdə olan konsulu Tiflisdə İttifaq Şurasının Azərbaycan xarici işlər üzrə səlahiyyətli nümayəndəsi Ə.Şirvaniyə bildirmişdi ki, Almaniya hökuməti bataqlıqların qurudulmasında Azərbaycana köməklik göstərə bilər. Beləliklə, Azərbaycanın su ehtiyatlarını araşdırmaq məqsədilə Almaniyadan H.Hübner, A.Lüdinq, Y.

[23]ARDA, f.412, siy.1, iş 12, v.15-16-63; f.28, siy.1, iş 5, v.55-57
[24]R. Dadaşova, *a.g.e.,* s. 80.
[25]S. Seyidova, *a.g.e.,* s. 109.
[26]R. Dadaşova, *a.g.e.,* s. 80.

Vilzern, R.Şafqaur kimi alimlər Bakıya işləmək üçün dəvət olundu. Bundan əlavə, Astarada taxta-şalban, karton, ağac emalı, konserv, vaqonqayırma zavodları tikmək üçün Azərbaycana xarici konsissionerlər dəvət olunmuşdular. 1921-ci ildə Çoqanın Aksioner birliyi Azərbaycan XKS-nə müraciət etmişdi və onun bu təklifi qəbul edilmişdi, Astara rayonunda müəyyən ərazilər xarici konsissionerlərinə verilmişdi.[27]

1921-ci ilin sentyabrında İtaliya ticarət nümayəndəsi Bakıya gəlmişdi. İtaliyanın Azərbaycanda iqtisadi marağı əsasən neft, ipək və pambıq xammalına yönəlmişdi. İtaliyanın neft yataqları olmadığı üçün İngiltərə və Amerikadan tam asılı idi, buna görə də neftə tələbat böyük idi. Bundan əlavə, İtaliya Yaxın Şərqdə möhkəmlənmək üçün neftə ehtiyacı var idi. İtaliya ticarət nümayəndəsi Bakıda olduğu bir vaxtda Cənubi Qafqazdakı İtaliyan nümayəndəliyi N.Nərimanova Azərbaycan neft yataqlarının konsessiyaya verilməsini təklif etdi. Italiya nümayəndəsi həmçinin, İtaliyadan Azərbaycana lazım olan zəruri malların gətirilməsini təşkil edəcəyini bildirdi.

1922-ci ilin aprel ayında Azərbaycan, Gürcüstan və İtaliyanın məşhur ipəkçilik firması olan Ferran-Qentran arasında müqavilə bağlandı. Bu müqaviləyə görə bütün Cənubi Qafqaz ipəkçiliyinin inhisara alınması təklif edildi və beləliklə Azərbaycanda ipəkçiliyin sərbəst inkişafı üçün zəmin yarandı. Lakin, müqavilə Sovet Rusiyasının iştirakı olmadan bağlandığı üçün layihə öz təsdiqini tapmadı.

[27]S. Seyidova, *a.g.e.,* s. 110.

## Sonuç

Əslində, sənaye sahələrinin konsessiyaya verilməsinin bir sıra müsbət cəhəti var idi. Birinci dünya müharibəsindən sonra dağıdılmış təsərrüfatı sahəsinin canlanmasında xarici ölkələrlə iqtisadi forması olduqca mühüm rol oynamışdı. Belə ki, xarici şirkətlər tərəfindən ölkədə geridə qalmış təsərrüfat sahələrini bərpa etdirilmiş, qısa müddətdə yeni fabrik və zavodların tikilməsini həyata keçirmişdi. 1921-ci ilin 7 avqustdan 1922-ci ilindekabrın 26-dək konsessiyaya nəzarət Azərbaycan hökumətinin səlahiyyətində olmasına baxmayaraq, xarici şirkətlərə razılaşma və danışıqlar Sovet hökuməti tərəfindən aparılırdı. Daha sonra, 1922-ci il dekabrında ZSFSR Konstitusiyasının qəbul edilməsi ilə xarici ticarət komissarlıqlarının birləşdirilməsi hüquqi cəhətdən tamamlanmış oldu. Bundan sonra, xarici ticarətin dövlət inhisarına alınması üçün işə başlanıldı, bir sıra xarici şirkətlərə lisenziya verilmədi. Xarici ticarətə baxış, lisenziyanın verilməsi dövlət kontorunun nəzarətinə verildi. 1925-ci ildən isə Baş konsessiya idarəsi tərəfindən xarici şirkətlərə verilmiş bütün icazələr ləğv olundu.

Bir sözlə, Azərbaycanın ayrı-ayrı Avropa dövlətləri ilə ticari-iqtisadi münasibətləri Avropa dövlətlərinin sovet hökümətinə münasibəti ilə müəyyən edilirdi. Sovet Rusiyası özünə mənfəət gətirən şərtlərlə bu əlaqələrə mane oldu. Azərbaycan Fransa, İtaliya, Almaniya və İngiltərəyə konsessiyaya verməklə böyük xeyir götürə bilərdi. Əksinə, ölkənin böyük miqdarda nefti Rusiyaya və digər sovet dövlətlərinə ixrac edilirdi. Azərbaycanın təbii sərvətləri Sovet Rusiyası tərəfindən amansızcasına mənimsənilirdi. Sovet hökumətinin əldə olunan gəliri mənimsəməsi və bütün sənaye sahələrinə nəzarəti ölkənin sərvətlərinin talanmasına gətirib çıxarmışdı. Beləliklə, Azərbaycan hökuməti Sovet Rusiyasının xarici ölkələrlə iqtisadi əlaqələrinə edilən müdaxiləsi nəticəsində əldə edə biləcəyi imkanlardan daha az faydalana bilmişdi.

**Kaynaklar**

*Azərbaycan tarixi:* 7 cilddə, VI C., Elm, Bakı 2008.

*Azərbaycan Respublikası Dövlət Arxivi,* f.411, siy 1, iş 12, v.62, 65.

*Azərbaycan Respublikası Dövlət Arxivi,* f.412, siy.1, iş 12, v.15-16-63; f.28, siy.1, iş 5, v.55-57.

DADAŞOVA, R., *Avropa dövlətləri və Azərbaycan (1920-1922ci illər),* Planet-Press, Bakı 2006.

ƏLİYEV,Ə., *Azərbaycan nefti dünya bazarında (XX əsrin 20 - 30 - cu illəri),* Elm, Bakı 2011.

HƏSƏNLİ, C., *Sovet Dövründə Azərbaycanın Xarici Siyasəti (1920-1939),* Adiloğlu, Bakı 2012.

HƏSƏNLİ,C., *Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov*, Azərbaycan Diplomatik Akademiyası, Bakı 2013.

HÜSEYNOV, A., *Nərimanovun Genuya səfəri*, Kommunist qəzeti, Bakı 4 iyul, 1989.

İBİŞOV, F., *Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930),* Mütərcim, Bakı 1996.

QULİYEV, R., *Azərbaycan dövlətçiliyi tarixində gömrük işi (Azərbaycan SSR sovet gömrük sistemi şəraitində (1920-1991),* Turxan NPB, Bakı 2015.

MEHDİYEV, M.,Beynəlmiləl Siyasətdə Petrol, Azərbaycan Dövlət, Bakı 1994.

SEYİDOVA, S., Azərbaycanın beynəlxalq əlaqələri(1920-1930-cu illər) Diplomat, Bakı 1998.

*V.İ.Lenin əsərlərinin tam küliyyatı,* 45 cild, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı 1984,

ZEYNALOV, K., *Azərbaycan SSR-in ticarət və iqtisadiyyatında xüsusi təsərrüfat kapitalist ukladı və onun sıxışdırılması məsələləri (1921-1928).* D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Elmi Əsərləri, Bakı 1972, s. 31- 35.